**Rüstəm İbrahimbəyov**

# GÜNƏŞ KƏLƏFİ

**DÖRDHİSSƏLİ BAKI SAQASI**

**r o m a n  v ə  h e k a y ə l ə r**

qanun nəşriyyatı

**İbrahimbəyov R. GÜNƏŞ KƏLƏFİ. DÖRDHİSSƏLİ BAKI SAQASI.** *Roman və hekayələr*
Bakı, Qanun Nəşriyyatı, 2024, 536 səh.

Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 19.01.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Müəllifin iştirakı ilə nəşrə hazırlayan və redaktor: | Nəriman Əbdülrəhmanlı |
| Korrektor: | Yeganə Kərimzadə, Əyyar Tahir |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-877-0

© Qanun Nəşriyyatı, 2024
© İbrahimbəyov R., 2024

Görkəmli nasir, dramaturq, ssenarist, ictimai xadim, Azərbaycanın xalq yazıçısı Rüstəm İbrahimbəyov ədəbiyyatımıza və mədəniyyətimizə 60-cı illərin əvvəllərində gəlmiş böyük yaradıcılar dəstəsinin parlaq nümayəndəsidir. O, yaradıcılığı – nəsr, kino, səhnə əsərləri ilə Azərbaycan mədəniyyətini zənginləşdirib, dünya mədəniyyətinə töhfələr verib.

R.İbrahimbəyovun nəsr əsərləri XX əsr Bakısına sözlə çəkilmiş bənzərsiz illüstrasiyaları xatırladır. F.Dostoyevskinin Sankt-Peterburqu, C.Coysun Dublini, O.Pamukun İstanbulu kimi, R.İbrahimbəyovun Bakısı da oxucuya özünəməxsus ab-havası, həyat tərzi, adət-ənənəsi, yazılmamış qanunları ilə təqdim olunur və yaddaşlarda şəhərin bütöv obrazı, mükəmməl portreti yaranır.

"Günəş kələfi" romanı və bir sıra hekayələr dilimizdə ilk dəfə nəşr olunur.

Günəş kələfi – insanın xaya hissəsindəki əsəb tellərinin məcmusudur.

Azərbaycan suveren dövlətdir.

Bakı Azərbaycanın paytaxtıdır.

Günəş kələfinə güclü zərbə ölümə səbəb ola bilər.

*Nəşr edilməmiş "Azərbaycan dili" dərsliyindən*

# GÜNƏŞ KƏLƏFİ

**roman**

BİRİNCİ HİSSƏ

# TƏBƏSSÜMLƏ OYANARAQ

## BAKI QƏZETLƏRİNDƏN

### Bizi kommunizmə böyük Stalin aparır

Partiyamızın XIX qurultayının keçirildiyi günlər Montin adına Maşınqayırma zavodunda siyasi və əmək yüksəlişinin qüdrətli dalğası ilə əlamətdar olmuşdur. Müəssisə məhsul buraxılışını artırmış, onaylıq istehsal planını vaxtından əvvəl yerinə yetirmişdir.

İndi, partiyamızın və xalqımızın böyük rəhbəri İosif Vissarionoviç Stalinin çıxışı və partiyamızın tarixi qərarları ilə əlaqədar olaraq, metallurgiya entuziazmı daha da yüksəlmişdir. Sexlərdə partiyamızın qurultayının nəticələrinə həsr edilmiş söhbətlər keçirilir, fəhlələr şanlı xalq bayramını – Böyük Oktyabrın 35 illiyini şərəflə qarşılamaq üçün artırılmış sosialist öhdəlikləri götürürlər.

***"Vışka",***
***1952, 7 mart***

### Kinofilmlərin Azərbaycan dilinə dublyaj edilməsi

Bakı kinostudiyası respublika ekranlarına Azərbaycan dilinə dublyaj edilmiş, "DEFA" studiyasının istehsalı olan "Çağırılmamış qonaqlar" bədii filmini buraxmışdır. Dublyajın rejissoru Z.Kazımovadır.

Tbilisi kinostudiyasının istehsalı olan "Zirvəni fəth edənlər" adlı rəngli bədii filmin Azərbaycan dilinə dublyajı başa çatmışdır. Dublyajın rejissoru H.İsmayılovdur.

Hər iki kinofilmin səsləndirilməsində M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının artistləri iştirak etmişlər.

***"Bakinskiy raboçiy",***
***1952, 1 aprel***